# 2 saatlıq, 45 dəqiqəlik, yoxsa 25 dəqiqəlik serial?

## Telekanalın formatı nə tələb edirsə, ona uyğun da...

**Dünyaya açılan pəncərənin - televiziyanın qarşısına keçərək dincəlmək gündəlik həyat tərzimizin bir parçasına çevrilib. Adətən günün ikinci yarısından sonra telekanallarda seriallar nümayiş olunur. Bu gün azyaşlı uşaqlardan tutmuş, yaşlılara qədər hər kəs vaxt ayırır seriallara. Seriallarımızın maraqlı olub-olmamağı barədə də birmənalı fikir yoxdur.**

Bu yöndə daim müzakirələr aparılır. Yəni bəyənib izləyənlər də var, kanalı dəyişənlər də. Amma bu yazıda serialların keyfiyyətindən yox, vaxtından danışacağıq. Adətən, türk serialları 90, 120 dəqiqə olur. Amma yerli serialların vaxt olduqca azdır. Necə deyərlər, televizorun qarşısında oturmağınla serialın bitməyi bir olur. Bizdə daha çox gündəlik seriallar üstünlük təşkil edir. Günlük seriallar da orta statistik nəticəyə görə 35-40 dəqiqə çəkir. Bu zaman çərçivəsində nümayiş olunan seriallarda təqdim olunan hadisənin necə cərəyan etməsi 4-5 seriyada tamaşaçıya çatdırılır. Qardaş ölkə Türkiyədə son 5-6 ildə günlük seriallardan imtina edərək həftəlik seriala keçid ediblər. Bir serial isə 2 saatdan artıq nümayiş olunur. Maraqlıdır, serial çəkilərkən vaxt necə müəyyənləşdirilir? Bunun üçün xüsusi yanaşma mövcuddur, yoxsa hər şey rejissordan asılıdır?

**"Xəzər" telekanalında yayımlanan "Xalxın evi" və "Ay yay yay" seriallarının quruluşçu rejissoru, Əməkdar artist Ramin Hacıyev** bildirdi ki, serialın nümayiş olunma saatları telekanallardan və onların iş strukturundan asılıdır: "Sitkom üslubunda çəkilən serialların ümumi müddəti 20-25 dəqiqə olmalıdır. Dünya miqyasında bu standart ölçülər dəyişməz olaraq qalır. Çünki gülmək üçün 25 dəqiqə kifayət edir, artığı zərərdir. Bu 25 dəqiqəlik sitkomda həm ümumi fikri çatdırmalı olursan, həm də tamaşaçılara yumor bəxş edirsən. Seriallarımızın 45 dəqiqə olmasının səbəbi isə efir vaxtını doldurmaq deyil. Biz serial çəkərkən telekanalın formatını və bizim üçün ayrılan zamanı da nəzərə alırıq. Məsələn, verilişlər standart olaraq 45 dəqiqə, filmlər 1 saatdan çox, komediya serialları 45 dəqiqə olmalıdırsa, biz də o formata uyğun məhsul hazırlayırıq. Komediya janrında serial çəkirik deyə, serialımızın müddəti çox azdır. Dram janrında olan seriallar daha uzunmüddətli olur. Misal üçün Rövşən İsaxın rejissorluq etdiyi "Yuxu kimi" serialı 1 saatdan çoxdur. Bundan başqa Rüfət Şahbazovun rejissorluğu ilə çəkilən "Ata ocağı" serialı da onun kimi".

Rejissor tələbə uyğun şəkildə məhsul hazırladıqlarını vurğulayır: "Bizdə reallıq tamamilə fərqlidir. Hər telekanalın öz formatı var. Hər hansı telekanala 25 dəqiqəlik serial aparsam, deyəcəklər ki, bunu 45 dəqiqə et. Çəkdiyimiz müddət bizi qane edir. Bəzən bizə hekayə verirlər, görürük ki, bu 45 dəqiqədən az edir, ancaq bəziləri də olur ki, daha uzun olur və biz o ssenarini qısaltmaq məcburiyyətində qalırıq. Ümumiyyətlə, mövzudan çox şey asılıdır. Ancaq 45 dəqiqə bizim komediyalar üçün məqbuldur".




**ARB telekanalında yayımlanan "Uçurum" serialının quruluşçu rejissoru Vüsal Məmmədov** bizimlə söhbətində günlük serialların iş rejiminin daha ağır olduğunu vurğuladı: "Serialımızın xronometrajı 30-35 dəqiqədir. Bu xronometraj Azərbaycanda yayımlanan günlük serialların hamısına şamil olunur. Türkiyədə həftəlik serial 2 saatlıq olur, bizim isə günlük serialımızın həftəlik saatlarını toplasaq, türklərin həftəlik serialından daha çox edir. Bizdə həftəlik seriallar çox az olduğundan, daha çox günlük seriallar çəkirik. Reklamsız, tam olaraq günlük serial 30-35 dəqiqə civarında hesablanır. Günlük seriallar Türkiyənin özündə də bir müddət davam etdi, daha sonra onlar bundan boyun qaçırmağa başladılar. Son 5-6 ildir ki, həftəlik seriallar yayımlanmağa başlayır. Biz hələlik günlük seriallar sistemindən çıxa bilməmişik. Bu da biz rejissorlardan asılı deyil. Hər hansı bir fikir həftəlik serialda bir seriyaya çatdırılırsa, günlük serialda bunu uzatmaq lazımdır ki, gələcək seriyalar üçün material olsun. Günlük serialda bir hadisəni bir neçə dəqiqənin içərisində çatdırmaq olmaz. Serialın müddəti əlbəttə ki, uzun olmalıdır. Artıq bizdə də bir saat, saat yarımlıq seriallar çəkilməyə başlayır. Günlük seriallarda həm rejissor, həm aktyor oyunları baxımından daha çox şey çatdırmaq olmur. Həftəlik seriallar olsa, 15-20 seriyalıq, yəni bir mövsümü idarə edən seriallar tamaşaçıya daha maraqlı olar. Həm də biz ssenaristlər və rejissorlar üçün daha rahat olar".

**"Xəzər" telekanalında yayımlanan "Ata ocağı" və "İmtahan" serialının qələm qrup rəhbəri, ssenarist Valeh Əhmədov** deyir ki, günlük serialları 35-45 dəqiqə aralığında olur: "Bizim serial da bu müddət aralığında çəkilir və həftənin 5 günü nümayiş olunur. Bir həftəlik nümayiş saatımız 175 dəqiqə aralığında material edir. Məkandan, çəkiliş prosesindən çox şey asılıdır. Məsələn, türklərdə "Eşqiya dünyaya hökmdar olmaz" serialı var ki, orada əsasən oturaq söhbətlər gedir, bu da çəkiliş üçün heç bir manеə yaratmır. Ancaq bəzən aksion seriallarda çəkiliş prosesi uzanır. Hər səhnədə atışma, həyəcan olur. Aktyor var ki, 33 saat öz növbəsini gözləyir ki, o biri səhnə çəkilib qurtaracaq, onun növbəsi gələcək. Bəzi seriallarda iki növbəli işləyirlər. Bir rejissor bu səhnəni, o biri rejissor isə digər səhnəni çəkir. İki rejissor qrupu olur, onlar da müəyyən saata qədər işləyirlər. Ən az zaman tələb edən isə komediya seriallarıdır ki, 35-40 dəqiqə aralığında nümayiş olunur. Ancaq vaxtilə bizim "Aramızda qalsın", "Qayınana" seriallarımız olub. Biz o serialları 55-60 dəqiqə aralığında çəkə bilirdik".

Son dönəmlər Türkiyə seriallarının da yaradıcı heyəti çəkiliş zamanından şikayətlənir və həftəlik olaraq 2 saatlıq serialın müddətindən narazılıq edirlər. Türkiyənin "Hürriyyət" qəzetində qısametrajlı serialların daha çox pul gətirdiyini, pul gəldikcə serial çəkən şirkətlərin pula hərisliyinin artdığı barədə yazılıb. Belə olduğu üçün serialların nümayiş olunma zamanlarının uzandığı qeyd edilir. Yaranan durumdan isə nə prodüserlər, nə də tamaşaçılar razı deyil. Aktyorların etirazları diqqətə alınmır və onlara "razılaşmada bütün bunlar qeyd olunmuşdu" deyərək, təhdid edirlər. Bundan başqa, 2 saat sürən seriallarda aktyorların bir-birinə baxışının belə 5 dəqiqədən çox çəkdiyi, həmin müddətin də tamaşaçını yorduğu bildirilir.

Türk ekspertlər bu uzanmaların serial üçün ayrılan müddətin dolması üçün edildiyini vurğulayırlar. Bir günə həll olunacaq hadisələrin aylarla öz həllini tapmamasına da ironik münasibət göstərilir. Türk mətbuatında 2 saat sürən seriallarla bağlı yazılan rəyləri və ekspert fikirlərini oxuduqdan sonra "bizim 35 dəqiqə sürən seriallarımız vaxt baxımından daha məqbuldur" deməkdən başqa əlac qalmır. Yəni hadisələr qısa və konkret olur. Serialın başlamağı ilə bitməyi bir olur.

**Xəyalə Rəis**